## İran, Qazaxıstan və Rusiya hərbi gəmiləri Bakı limanını tərk edib



Azərbaycanın Xəzər dənizindəki ərazi sularında "Beynəlxalq Ordu Oyunları-2022" yarışları çərçivəsində keçirilən "Dəniz kuboku" müsabiqəsində iştirak etmək üçün ölkəmizdə olan İran və Qazaxıstan Hərbi Dəniz Qüvvələrinin, həmçinin Rusiya Hərbi Dəniz Donanmasının gəmiləri və şəxsi heyəti Bakı limanını tərk edib.

Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.

## Laçın rayonuna komendant təyin olundu



**Laçın rayonuna yeni komendant təyin olunub.**

Bu barədə Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətindən məlumat verilib.

Məlumatda bildirilir ki, Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən, daxili işlər naziri tərəfindən Laçın rayon müvəqqəti komendantlığı yaradılmaqla, rayon polis şöbəsinin rəisi müvəqqəti komendant təyin olunub.


№ 153 (5675), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az

27 avqust 2022-ci il (şənbə)




## İranla sərhədi pozan şəxs saxlanılıb

**Avqust ayının 26-da saat 03:05-də "Göytəpə" sərhəd dəstəsinin Biləsuvar rayonunun Arazbarı kəndi yaxınlığında yerləşən sərhəd zastavasının xidməti ərazisində 1 (bir) nəfər naməlum şəxsin İran İslam Respublikasından Azərbaycan istiqamətində hərəkət edərək mühəndis çəpərinə yaxınlaşması və dərhal geri qayıtması ərazidə xidmət aparan sərhəd naryadı tərəfindən müşahidə olunub.**

Bu barədə Dövlət Sərhəd Xidmətinin (DSX) Mətbuat Mərkəzindən məlumat verilib.

Sərhəd zastavası dərhal "Silaha" komandası ilə qaldırılıb, qeyd olunan ərazi qapadılıb və nəzarətə götürülüb. Dövlət sərhədinin pozulması ilə əlaqədar keçirilən sərhəd axtarışı və əməliyyat tədbirləri nəticəsində saat 03:40-da sərhədboyu ərazidə gizlin yerdən naməlum əşya götürən bir nəfərin şübhəli hərəkətləri sərhədçilərin diqqətini cəlb edib.

Sərhəd naryadının "Dayan" əmrinə tabe olmayan şübhəli şəxs hadisə yerindən uzaqlaşmağa cəhd edərkən saxlanılıb. Saxlanılan şəxsin Bakı şəhər sakini, 1991-ci il təvəllüdlü Balakişiyev Zeynalabdin Fəxrəddin oğlu olması müəyyənləşdirilib, şəxsin üzərinə baxış keçirilərkən 1 ədəd bağlamanın içərisində 18 kq 385 qram narkotik vasitəyə bənzər maddələr (14 kq 755 qram marixuana və 3 kq 630 qram tiryək) aşkar olunaraq götürülüb.

Fakt üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.



## Brüssel görüşü əhəmiyyətli olacaq

### Ermənistanın bundan sonra atacağı addımlar konkret bilinəcək

**Avropa Şurasının rəhbəri Şarl Mişelin vasitəçiliyi ilə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan Baş naziri Nikol Paşinyan arasında görüş avqustun 31-də baş tutacaq.**

Ermənistan hökumətinin mətbuat xidməti bu barədə yayılan məlumatı təsdiqləyib. Bildirilib ki, görüş Brüsseldə olacaq. Bəzi ekspertlər Ermənistanın Azərbaycanın tələblərini yerinə yetirməkdən başqa çarələrinin qalmadığını əsas gətirərək liderlərin gözlənilən görüşünün həlledici olacağını düşünürlər.

## Tarif Şurasının radiotezliklərlə bağlı səlahiyyəti ləğv edilib



**Prezident İlham Əliyev "Telekommunikasiya haqqında" qanunun tətbiq edilməsi barədə" 9 avqust 2005-ci il tarixli fərmanında dəyişiklik edib.**

Dövlət başçısı bununla bağlı yeni fərman imzalayıb.

Fərmana əsasən, radiotezliklərlə bağlı qərar vermək səlahiyyəti Tarif (Qiymət) Şurasından alınaraq Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə verilib. Amma bu qərarlar İqtisadiyyat Nazirliyi və Maliyyə Nazirliyi ilə razılaşdırılmalıdır.

Telekommunikasiya xidmətləri ilə bağlı qərarları isə Tarif Şurası qəbul edəcək.

# "Dəmir yumruq" Laçını geri qaytardı

### "Cənab Prezidentin dediyi kimi o, nəyi, necə və nə vaxt edəcəyini çox yaxşı bilir"





**Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən Laçın şəhəri, eləcə də Zabux və Sus yaşayış məntəqələri ordumuzun bölmələri tərəfindən tam nəzarətə götürüldü.**

Azərbaycan Ordusunun bölmələri Laçın şəhərinə daxil olaraq şəhərin mərkəzində şanlı bayrağımızı dalğalandırdılar. Dövlət başçısı "Tvitter" səhifəsində paylaşım edərək xalqa sevindirici müjdəni verdi. Son aylarda gündəmin ən aktual problemlərindən olan Laçın şəhərinin, eyni zamanda, Zabux və Sus kəndlərinin boşaldılması cəmiyyətdə ciddi müzakirə mövzusu idi. Ermənilərin 44 günlük müharibədən sonrakı öhdəliklərini icra etməməsinin, müxtəlif bəhanələr gətirdiklərinin şahidi olduq. Bu istiqamətdə çoxsaylı təxribatlar törədildi. Lakin "Qisas" əməliyyatı nəticəsində ermənilərə bir daha izah olundu ki, Azərbaycanın dəmir yumruğu yerindədir. Ali Baş Komandanın siyasi iradəsinə yaxşı bələd olan ermənilər Laçın dəhlizi üçün onlara verilən vaxta, avqustun 25-dək şəhərin mərkəzini, o cümlədən Zabux və Sus kəndlərini tamamilə boşaltdılar.

(səh.2)

# Minsk qrupu de-fakto siyasi arenadan silinib

### ABŞ-ın mənasız cəhdləri regionda varlığını isbatlamaq məqsədi daşıyır




**"Həmsədr ölkələr 28 il ərzində işğala son qoymaq yollarını aramaqdansa, ədalətsizliyi ört-basdır etməklə məşğul oldular. Üçlüyün təzyiqlərinə baxmayaraq, Azərbaycan işğalla barışmadı".**

Bu sözləri "Şərq"ə Vəhdət Partiyasının sədr müavini Vasif Əfəndiyev deyib. Partiya təmsilçisi qeyd edib ki, 28 il davam edən təcavüz və atəşkəsdən maksimum yararlandıq, nəticə göz qabağındadır: "2020-ci ilin payızından etibarən tamamilə nüfuzdan düşmüş Minsk qrupu de-fakto siyasi arenadan silinib.

(səh.2)

## AYB-nin qurultayının vaxtı dəyişib



**Azərbaycan Yazıçılar Birliyinin (AYB) qurultayının keçiriləcəyi vaxt dəyişib.**

Birlikdən APA-nın sorğusuna cavab olaraq bildirilib ki, 30 sentyabrda Milli Məclisin iclası olduğu üçün qurultayın vaxtı dəyişib:

"Milli Məclisin 30 sentyabr iclasına görə, qurultayın iclası 5 oktyabr tarixinə dəyişdirilib", - məlumatda deyilir.

## Türkiyə XİN məmnundur

### Laçın şəhəri, Zabux və Sus kəndlərinin Azərbaycana qaytarılıb

**Türkiyə Xarici İşlər Nazirliyi Laçın şəhəri, Zabux və Sus kəndlərinin Azərbaycana qaytarılması ilə bağlı açıqlama yayıb.**

Bildirilir ki, Türkiyə Laçın şəhəri, Zabux və Sus kəndlərinin Azərbaycana qaytarılmasından məmnundur.

## Koronavirusdan 1 nəfər ölüb

### Daha 542 yeni yoluxma faktı qeydə alınıb




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 542 yeni yoluxma faktı qeydə alınıb, 501 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən 1 nəfər vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 811 131 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 797 668 nəfər müalicə olunaraq sağalıb, 9 796 nəfər vəfat edib, aktiv xəstə sayı 3 667 nəfərdir. Ölkədə son sutka ərzində 3 659, hazırkı dövrədək isə 7 9138 810 test aparılıb.

## Şirvanda doğuş zamanı körpə ölüb



**Şirvan Doğum evində doğuş zamanı körpə ölümü baş verib.**

TƏBİB-dən verilən məlumatına görə, avqustun 26-da, saat 11:45 radələrində Şirvan şəhər Mərkəzi Xəstəxanasının Doğum evinə 1997-ci il təvəllüdlü, 38-39 həftəlik hamilə qadın yerləşdirilib. Saat 15:45 radələrində təbii üsulla gerçəkləşən doğum zamanı 5 kilo çəkili kişi cinsli dölün ana bətnində öldüyü məlum olub.



## Ermənilər Laçını özlərinə layiq tərk ediblər

### Akif Nağı: "Onlar İŞİD kimi bir topluluqdur, heç bir fərqləri yoxdur"

(səh.2)

## "İranın Cənubi Azərbaycan qorxusu var"



Turan Rzayev: "Reallıq odur ki, molla rejimi bizim təxmin etdiyimizdən də çox narahatdır"

(səh.3)

# "Dəmir yumruq" Laçını geri qaytardı

## "Cənab Prezidentin dediyi kimi o, nəyi, necə və nə vaxt edəcəyini çox yaxşı bilir"



**Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən Laçın şəhəri, eləcə də Zabux və Sus yaşayış məntəqələri ordumuzun bölmələri tərəfindən tam nəzarətə götürüldü.**

Azərbaycan Ordusunun bölmələri Laçın şəhərinə daxil olaraq şəhərin mərkəzində şanlı bayrağımızı dalğalandırdılar. Dövlət başçısı "Tvitter" səhifəsində paylaşım edərək xalqa sevindirici müjdəni verdi. Son aylarda gündəmin ən aktual problemlərindən olan Laçın şəhərinin, eyni zamanda, Zabux və Sus kəndlərinin boşaldılması cəmiyyətdə ciddi müzakirə mövzusu idi. Ermənilərin 44 günlük müharibədən sonrakı öhdəliklərini icra etməməsinin, müxtəlif bəhanələr gətirdiklərinin şahidi olduq. Bu istiqamətdə çoxsaylı təxribatlar törədildi. Lakin "Qisas" əməliyyatı nəticəsində ermənilərə bir daha izah olundu ki, Azərbaycanın dəmir yumruğu yerindədir. Ali Baş Komandanın siyasi iradəsinə yaxşı bələd olan ermənilər Laçın dəhlizi üçün onlara verilən vaxta, avqustun 25-dək şəhərin mərkəzini, o cümlədən Zabux və Sus kəndlərini tamamilə boşaltdılar. Təbii ki, bütün bunlar Ermənistanın Azərbaycan qarşısında tam aciz vəziyyətə düşdüyünü göstərir. Ermənilər müxtəlif bəhanələrlə öhdəliklərdən yayınmağa çalışsalar da, Azərbaycan Prezidentinin düşünülmüş siyasəti və qəti addımları sayəsində mövcud reallığı dərk etmək məcburiyyətində qaldılar. Bu məcburiyyət 10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli bəyanatın bütün bəndlərinin qeydşərtsiz icra olunmasıdır. Üçtərəfli bəyanatın imzalanması bir tərəfdən Ermənistanı kapitulyasiyaya məcbur etdi, digər tərəfdən Ali Baş Komandanın rəhbərliyi ilə müzəffər Azərbaycan Ordusunun gücünü bütün dünyaya nümayiş etdirdi. Azərbaycan 2020-ci ildə BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsini təkbaşına

### *Çingiz Qənizadə: "Növbəti məsələlər Xankəndi, Xocalı, Xocavənd və digər ərazilərimizdə də dövlətimizin nəzarətinin bərpa olunmasıdır"*

icra etməklə bir tərəfdən dünyada ədalətin bərpa olunmasına, digər tərəfdən isə dövlət və xalqlararası beynəlxalq mədəni əlaqələrin genişlənməsinə dair yeni çağırışların və reallıqların zəruriliyini ortaya qoydu. Bəyanatın vacib məqamlarından biri insan tələfatının, qan tökülməsinin qarşısının alınması, işğaldan azad edilmiş ərazilərdə beynəlxalq mədəni əlaqələrin, iqtisadi, sosial və ekoloji təhlükəsizliyin təmin edilməsidir. Azərbaycanın əsas hədəfi Cənubi Qafqazda sülhün qorunub saxlanılması, ölkəmizin suverenliyinin tam bərpa olunmasıdır. Bu proses öz növbəsində ölkəmizlə yanaşı, regionun sosial-iqtisadi rifahına, sülh və təhlükəsizliyə birbaşa təsir edən amildir. Bəyanatın 6-cı bəndində Laçın dəhlizi üzrə yeni hərəkət marşrutunun inşası ilə bağlı anlaşmanın qəbul olunması bu ərazilərdən didərgin salınmış həmvətənlilərimizin geri dönüş hüququnun təmininə şərait yaratmaqla, ümumilikdə münaqişədən sonrakı normallaşma üçün mühüm addım idi. Bölgədəki son hadisələr Azərbaycanın qalib olduğunu və regionda artıq yeni reallıqların mövcud olduğunu bir daha açıq-aşkar göstərir. O baxımdan Ermənistan Azərbaycanın hüquqi və qanuni iddialarını əks etdirən yeni reallıqları yerində qəbul etməlidir. Şübhə etmirik ki, Azərbaycan dövləti öz hədəflərinə doğru addım-addım irəliləyərək, bütün ərazilərimiz üzərində suveren hüquqlarımızı tam bərpa edəcək. Sülhü və təhlükəsizliyi qorumağın yeganə yolu region dövlətlərinin qarşılıqlı əməkdaşlığının daha da güclənməsindən keçir.

**Millət vəkili Çingiz Qənizadə "Şərq"ə açıqlamasında bildirib ki, Laçın şəhərinin mərkəzinin, Zabux və Sus kəndlərinin Azərbaycana qaytarılması istiqamətində çox ciddi iş aparılıb. Deputatın sözlərinə görə, erməni tərəfi müxtəlif bəhanələrlə, cığallıqlarla çalışırdı ki, Laçın dəhlizinə alternativ olan yeni yolun istifadəsini avqustun sonunadək yubatsın:** "Ermənilər Zabux və Sus kəndlərinin boşaldılmasını ləngidirdi. Sözün açığı, cəmiyyətimizdə də birmənalı yanaşma yox idi. Müəyyən kəsim israrlı şəkildə həmin bölgəyə ordumuzun girməsini təkid və tələb edirdilər. Sapı özümüzdən olan baltalar da təxribatçı açıqlamalar verirdilər və s. Amma cənab Prezidentin tviterdəki paylaşımından gördük ki, Azərbaycan Ordusu deyilən vaxtda Laçın şəhərinin mərkəzini və iki yaşayış məntəqəsini nəzarətə götürüb. Qansız-qadasız, heç bir silah işlətmədən bu istəyimizə də nail olduq. Təbii ki, bu, cənab dövlət başçısının siyasəti və diplomatik gedişlərinin nəticəsidir.

Növbəti məsələlər Xankəndi, Xocalı, Xocavənd və digər ərazilərimizdə də dövlətimizin nəzarətinin bərpa olunmasıdır. Səbrli olmaq lazımdır. Cənab Prezidentin dediyi kimi o, nəyi, necə və nə vaxt edəcəyini çox yaxşı bilir. Heç kimin şübhəsi olmasın ki, Xankəndi və ətraf rayonlarda da Azərbaycan dövlətinin nəzarəti reallaşacaq. Həmin bölgələrdə Azərbaycan qanunlarının və dövlət idarəçiliyinin tətbiqinin şahidi olacağıq. Dövlətimiz və ölkə başçısı cənab İlham Əliyev bu istiqamətdə işlərini davam etdirir. Mən Laçın şəhərinin mərkəzinin və iki məntəqənin azad olunması münasibəti ilə xalqımızı ürəkdən təbrik edirəm".

**İsmayıl Qocayev**

**Avropa Şurasının rəhbəri Şarl Mişelin vasitəçiliyi ilə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan Baş naziri Nikol Paşinyan arasında görüş avqustun 31-də baş tutacaq.**



# Brüssel görüşü əhəmiyyətli olacaq

## Ermənistanın bundan sonra atacağı addımlar konkret bilinəcək

Ermənistan hökumətinin mətbuat xidməti bu barədə yayılan məlumatı təsdiqləyib. Bildirilib ki, görüş Brüsseldə olacaq. Bəzi ekspertlər Ermənistanın Azərbaycanın tələblərini yerinə yetirməkdən başqa çarələrinin qalmadığını əsas gətirərək liderlərin gözlənilən görüşünün həlledici olacağını düşünürlər.

**Cənubi Qafqaz Təhlükəsizlik və Sülh İnstitutunun sədri, politoloq Məhəmməd Əsədullazadə deyib ki, "Qisas" hərbi əməliyyatından sonra Ermənistan tərəfi razılaşmaların icra olunması ilə bağlı real addımlar atmağa başladı. Analitikə görə, Laçının boşaldılması da bu real addımlardan oldu:** "Ermənistan Azərbaycanla bir daha manipulyasiya etməyin hərbi qarşıdurmaya gətirəcəyinin fərqinə vardı. Bu da Ermənistanın zaman qazanmaq şansının olmamasını göstərdi. Eyni zamanda ermənilər anladılar ki, artıq heç kimə güvənib Azərbaycana qalib gələ bilməzlər. Sərhədlərin delimitasiya və demarkasiyası üzrə komissiyanın iclasının Moskvada keçiriləcəyi qeyd edilib. Hətta Moskvanın vasitəçiliyi ilə dövlət başçısı İlham Əliyev və Baş nazir Nikol Paşinyan arasında görüş keçiriləcəyi qeyd olunub. Amma Brüsseldə Hikmət Hacıyevlə A.Qriqoryan arasında T.Klaar vasitəçiliyi ilə keçirilən görüşdə liderlərin Brüssel görüşünün davam etdirilməsi razılaşdırılıb. Avqustun 31-də keçiriləcək görüşdə əldə olunan razılaşmaların icra mexanizmi və sülh müqaviləsinin bağlanması müzakirə ediləcək. Xüsusilə Zəngəzur dəhlizinin açılması, sərhədlərin demarkasiyası və delimitasiyası məsələsinin də müzakirə ediləcəyi gözlənilir. Ümumiyyətlə, Brüssel görüşü əhəmiyyətli görüş olacaq. Ermənistanın bundan sonra atacağı addımlar konkret bilinəcək. Ermənistan imza atdığı bəndlərə əməl etməlidir. Əksi hərbi qarşıdurmadır. Nikol Paşinyan bunu gözəl anlayır. Paşinyan baş nazir olaraq erməni cəmiyyətini başa salmalıdır. Artıq bu istiqamətdə addımlar atmaqdadır. Müstəqillik bayramı münasibətilə xalqa ünvanladığı təbrikdə Ermənistanın çıxış yolunun olmadığını vurğulaması da bundan xəbər verir".

### *"Paşinyan baş nazir olaraq erməni cəmiyyətini başa salmalıdır"*

**İsmayıl**



# Ermənistanın borclanması Paşinyanın dayaqlarını zəiflədib

## Müxalifət də bu amildən maksimum istifadə edərək ona qarşı kampaniyaya start verəcək

**2020-ci il iqtisadi böhranının nəticələrini yumşaltmaq və siyasi problemləri həll etmək üçün Ermənistan hökuməti dövlət borcunu artıraraq 9,97 milyard dollara çatdırıb.**

Ermənistan mediasından verilən məlumata görə, 2021-ci ildə Ermənistanın dövlət borcu 1,3 milyard dollar və ya 16 faiz artdığı halda, cari ilin yanvar-iyul aylarında bu rəqəm 748,36 milyon dollar təşkil edib. Hazırkı hökumət isə dövlət borcunu 3,1 milyard dollar və ya 45,2 faiz artırıb.

Qeyd olunub ki, bu ilin yeddi ayında İrəvanın daxili borcu 219,4 milyard dram və ya 18,4 faiz artıb. O cümlədən, 2022-ci ilin iyulunda Ermənistanın dövlət borcunun 58,6 faizini xarici, 41,4 faizini isə daxili borclar təşkil edib.

**Ermənistandakı dövlət borcunun Baş nazir Nikol Paşinyan hökuməti üçün yaradacağı təhlükələrdən danışan politoloq Məhəmməd Əsədullazadə "Şərq"ə açıqlamasında qeyd edib ki, ümumilikdə rəsmi İrəvanda sosial-iqtisadi durum ürəkaçan deyil:** "Müharibədən sonra xarici investisiyaların yatırımı ciddi şəkildə zəifləyib. Bundan əlavə, Ermənistan uzun illər Qarabağın iqtisadiyyatından yararlanıb. Hazırda bu imkan əlindən çıxdığına görə ölkədə işsizlik, miqrasiya, sosial-iqtisadi problemlər və inflyasiya Ermənistan hökumətinin borclarının artmasına səbəb olub. Paşinyan bu borclarla sosial-iqtisadi islahatlar həyata keçirməyə çalışırdı. Lakin bu, ölkənin xarici investorlardan asılı vəziyyətinə düşməsinə səbəb oldu".

**M.Əsədullazadə hesab edir ki, Ermənistanın borca girməsi Paşinyanın siyasi dayaqlarını zəiflədir:**

"Təbii ki, müxalifət bu amildən istifadə edəcək. Növbəti mərhələlərdə ölkə iqtisadiyyatı zəiflədikcə rəsmi İrəvan beynəlxalq banklara müraciət edə bilməyəcək. Nəticədə hökumət maliyyə və kredit siyasəti, sosial, iqtisadi və siyasi islahatlar keçirməyə müvəffəq olmayacaq. Bu da xalqın Paşinyana etimadının zəifləməsinə, dövlətin gələcək perspektivdə defolta düşməsinə gətirib çıxaracaq. Bu proseslər Paşinyanın gələcək hakimiyyəti üçün təhlükəlidir. Müxalifət də bu amildən maksimum istifadə edərək ona qarşı kampaniyaya start verəcək".

Politoloq Zaur Məmmədovun fikrincə, Paşinyan hökuməti borcun bu həddə çatmasında günahkardır, amma Ermənistanda hakimiyyətdə kimin olmasından asılı olmayaraq, dövlət borcu yalnız artan templə davam edəcək:

"Bunun səbəbi yarıtmaz siyasət və ölkənin düşdüyü durumdur. Onların Azərbaycan və Türkiyə olmadan xilaslarının olmaması hər kəsə məlumdur. Ermənistan isə rəsmi Bakı və Ankara ilə danışıqlar aparmaqdansa, səfeh siyasətini davam etdirir. Nəticə etibarilə, 2018-ci ildən başlayaraq dövlət borcunun getdikcə artdığını müşahidə edirik".

**Çimnaz Şahlar**

# Ermənilər Laçını özlərinə layiq tərk ediblər

## Akif Nağı: "Onlar İŞİD kimi bir topluluqdur, heç bir fərqləri yoxdur"

**Ermənilər 30 il əvvəl Qarabağa, işğal etdikləri yaşayış məntəqələrinə necə soxulmuşdularsa, bu gün də eyni vəhşiliklə ərazini tərk edirlər. Bu qədər zaman keçsə də, uzun illər ötsə də, dəyişməyən tək şey erməni xislətidir.**

1992-ci ildə işğal etdikləri Laçın şəhərində qeyri-qanuni məskunlaşan ermənilər torpaqlarımızı tərk edərkən hər yeri söküb-dağıdıb, yandırıb çıxıblar. Laçın şəhəri və Zabux kəndini yandırmaq cəhdinin qarşısı alınan ermənilər yol kənarındakı ərazilərə, otlaq sahələrinə, yaşıllıqlara od vurublar. Məqsədləri alovun geniş miqyas alaraq, meşələrə, dağlara yayılması olub. Lakin yanğının vaxtında söndürülməsi təbii fəlakətin qarşısını alıb. Ermənilər Zabux və Sus kəndlərində yaxınlarının məzarlarını qazıb, meyitlərini də özləri ilə aparıblar. Ərazidəki Su Elektrik Stansiyası da vandalizmə məruz qalıb. Ərazilərdəki tikililər, evlər, kommunikasiya xətləri, elektrik dirəkləri, naqillərin sökülməsi, yolların, boruların və körpülərin dağıdılması Rusiya sülhməramlılarının gözü qarşısında baş verib. Vəhşi ermənilər yol kənarındakı ağacları da kəsiblər. Kəlbəcərdə, Ağdamda olduğu kimi, Laçını da özlərinə layiq izlər qoyaraq tərk ediblər.

**Qarabağ Azadlıq Təşkilatının sədri**



**Akif Nağı "Şərq"ə bildirib ki, ermənilər ən eybəcər xüsusiyyətlərə malikdir. QAT rəhbərinin sözlərinə görə, tarix boyu bəşərin ən tanınmış simaları, mütəfəkkirləri erməni toplumunun mənfiliklərindən, insanlıqdan uzaq davranışlarından bəhs ediblər:** "Ermənilərin xəmiri xəyanət və nankorluqla yoğrulub. Ona görə də başqa cür hərəkət etməyi bacarmırlar. Onların işi düşmənçilik, quldurluq, pislik etməkdir. Ermənilər özləri də yaxşı bilirdilər ki, gec-tez Laçını və işğal etdikləri digər rayonlarımızı tərk edəcəklər. Məhz həmin ərazilərin özlərinə məxsus olmadıqlarını, özgəsinin torpağı olduğunu bildikləri üçün, bizə ziyan vurmaq məqsədi ilə yandırıb-dağıdıb çıxırlar. Ölülərini də müvəqqəti basdırdıqları üçün özləri ilə daşıyırlar. Ermənilər məzarları dağıtmağı yaxşı bilirlər. 30 il ərzində Qarabağda heç bir məzarlıq qalmayıb, hamısını yerlə-yeksan ediblər. Hətta bir erməni qəsdən evin içində donuz kəsərək qanını axıdıb, parçalarını otağın müxtəlif yerlərindən asıb. Buna nə ad vermək olar?! Ermənilərin otlaqları məhv etməsi, ağacları kəsməsi, meşələrə od vurması da əsl vandalizmdir, bəşəriyyətə, təbiətə düşmən olmaqdır. Onlar İŞİD kimi bir topluluqdur, heç bir fərqləri yoxdur".

**A.Nağı vurğulayıb ki, ermənilər məğlubiyyəti qəbul edə bilmirlər:** "Guya, öz ağıllarınca, belə iyrənc hərəkətlərlə Azərbaycana zərbə vurmağa, bir növ "qisas" almağa çalışırlar. Bizim millətə qarşı o qədər nifrət siyasəti ilə yetişiblər ki, bu cür çirkin addımların dünya ictimaiyyətində hansı reaksiya doğuracağını da düşünmürlər. Əlimizdəki bütün foto-videoları, dəlil-sübutları beynəlxalq təşkilatlara, dünya ictimaiyyətinə çatdırmalıyıq. Erməni vəhşiliklərini ifşa etmək hamımızın vətəndaşlıq borcudur. Həmçinin, torpaqlarımızda qanunsuz əməllər törətmiş, ərazilərimizə ziyan vurmuş ermənilərə qarşı cinayət işi açılmalıdır".

**İsmayıl Qocayev**



# Minsk qrupu de-fakto siyasi arenadan silinib

## ABŞ-ın mənasız cəhdləri regionda varlığını isbatlamaq məqsədi daşıyır

**"Həmsədr ölkələr 28 il ərzində işğala son qoymaq yollarını aramaqdansa, ədalətsizliyi ört-basdır etməklə məşğul oldular. Üçlüyün təzyiqlərinə baxmayaraq, Azərbaycan işğalla barışmadı".**

*Bu sözləri "Şərq"ə Vəhdət Partiyasının sədr müavini Vasif Əfəndiyev deyib. Partiya təmsilçisi qeyd edib ki, 28 il davam edən təcavüz və atəşkəsdən maksimum yararlandıq, nəticə göz qabağındadır:* "2020-ci ilin payızından etibarən tamamilə nüfuzdan düşmüş Minsk qrupu de-fakto siyasi arenadan silinib. Onu ABŞ-ın yenidən diriltmək cəhdi uğursuz olacaq. Azərbaycan tərəfi Minsk qrupunun hansısa fəaliyyətinə razılıq versə də, bu yalnız sırf texniki və humanitar məsələlərə aid olmalıdır. Həmsədrlik institutu gələcəkdə Ermənistanla münasibətlərin qurulmasına, Zəngəzur dəhlizinin açılmasına və mədəni əlaqələrin yaradılmasına xidmət edə bilər".

**Analitikin qənaətincə, ABŞ-ın Minsk qrupuna yeni həmsədr təyin etməsi regionda varlığını isbatlamaq məqsədi daşıyır:** "Son bir ayda Azərbaycanın Qarabağ iqtisadi rayonunda aktivliyi, Ermənistanı 10 noyabr sazişinin bəndlərini icra etməyə məcbur etməsi, həmçinin, Rusiyanın müttəfiqlik sazişinə sayğı göstərməsi ABŞ-ı narahat etməyə bilməzdi. Görünür, Amerika hansısa formada yekun sülh razılaşmasında iştirak etmək niyyətindədir. Lakin bizim üçün münaqişə bitib. Heç bir beynəlxalq təşkilatın yenidən araya girərək razılaşdırılmış anlaşmaları dəyişdirməyə cəhd etməsinə yol verməməliyik. NATO bölgədə Türkiyə qismində yetərincə təmsil olunur və Azərbaycan Türkiyəyə tam etibar edir".

**İsmayıl**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi;**



# "Tokayevin səfəri iki ölkə arasında əlaqələri yeni müstəviyə qaldırır"

**Xarici İşlər Nazirliyində Azərbaycan və Qazaxıstan arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü münasibətilə tədbir və sərgi keçirilib. Tədbirdə XİN-in rəhbər heyəti, Qazaxıstanın Azərbaycandakı səfirliyinin əməkdaşları, Heydər Əliyev adına Azərbaycan-Qazaxıstan Dostluq Cəmiyyətinin üzvləri, elmi dairələrin nümayəndələri, eləcə də digər qonaqlar iştirak ediblər.**

Xarici işlər nazirinin müavini Xələf Xələfov, Azərbaycan və Qazaxıstan arasında mövcud olan dostluq və qardaşlıq münasibətlərinin xalqlarımızın ortaq tarixi, mədəni dəyərlərindən qaynaqlandığını bildirib. İki ölkə arasında əlaqələrin inkişafında dövlət başçılarının xüsusi rolunu vurğulayan nazir müavini Xələf Xələfov, həm ikitərəfli əsasda, həm də çoxtərəfli platformalar çərçivəsində Azərbaycan və Qazaxıstan arasında qarşılıqlı uğurlu fəaliyyətin mövcudluğunu qeyd edib. O, ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi, energetika, logistika, humanitar, mədəni və digər sahələrdə əməkdaşlığın 2005-ci ildə Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri haqqında Müqavilə"yə əsaslandığını ifadə edib. Xələf Xələfov, həmçinin 24 avqust 2022-ci ildə Qazaxıstan Respublikasının Prezidenti Qasım-Jomart Tokayevin ölkəmizə baş tutan rəsmi səfərinin ikitərəfli münasibətlərimizin inkişafında tarixi əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb. Qazaxıstanın Azərbaycandakı səfiri Serjan Abdıkarimov iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü münasibətilə təbriklərini tədbir iştirakçılarının diqqətinə çatdırıb. Səfir imzalanan sənədlərin iki ölkə arasında bütün sahələrdə münasibətlərin daha da inkişaf etdirilməsinə töhfə verəcəyini ifadə edib.

Azərbaycanla Qazaxıstan dost və qardaş ölkələrdir. Qazaxıstan Prezidenti Qasım-Jomart Tokayevin ölkəmizə rəsmi səfəri və Prezidentimiz İlham Əliyevlə görüşü münasibətlərimizin yüksələn xətlə inkişaf etdiyinin göstəricisidir. Səfər çərçivəsində aparılan müzakirələr və imzalanan sənədlər ölkələrimiz arasında əməkdaşlığın geniş potensialının olduğunu göstərir. Prezident İlham Əliyev iki dövlətin münasibətlərinə böyük önəm verdiyini diqqətə çatdırdı. Məhz dövlət başçısının iki ölkə arasında münasibətlərin gücləndirilməsinə verdiyi töhfələrin nəticəsidir ki, Qazaxıstanın ali ordeni olan "Altın kıran" - "Qızıl qartal" ordeni ilə təltif edildi. Qazaxıstan hər zaman Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib. Tokayevin ölkəmizə səfəri zamanı Qazaxıstanın Azərbaycana hədiyyəsinin - işğaldan azad edilmiş ərazilərdə tikiləcək Uşaqların Yaradıcılığının İnkişafı

## Ceyhun Məmmədov: "Bütün beynəlxalq platformalarda Qazaxıstan və Azərbaycan nümayəndələri sıx, qarşılıqlı fəaliyyətdədirlər"

Mərkəzinin təqdimatının keçirilməsi xalqlarımızın qardaşlıq münasibətlərinin daha bir nümunəsidir. Mərkəz Füzuli şəhərində tikiləcək. Dost ölkələr tərəfindən azad edilmiş ərazilərdə görülən işlər, bərpa prosesinə dəstək hər zaman xalqımız tərəfindən rəğbətlə qarşılanır.

Qazaxıstanla beynəlxalq səviyyədə əməkdaşlığımız da yüksələn xətt üzrə inkişaf edir. Ölkələrimiz aparıcı beynəlxalq təşkilatlarda fəal əməkdaşlıq edir, daim bir-birimizi dəstəkləyirik. Bu, gələcəkdə də davam edəcək. Çünki əməkdaşlıq etdiyimiz beynəlxalq təşkilatların say kifayət qədər çoxdur və bütün beynəlxalq platformalarda Qazaxıstan və Azərbaycan nümayəndələri sıx, qarşılıqlı fəaliyyətdədirlər. Azərbaycanı Orta Asiya xalqları ilə eyni tarixi, mədəni-etnik, dini köklər birləşdirir. Hamımız birlikdə türk dünyası adlı vahid etno-mədəni birliyi təşkil edirik. Eyni zamanda Türk Dövlətləri Təşkilatının (TDT) üzvləriyik. Yeni soykök identikliyimizlə yanaşı, siyasi birliyimiz də mövcuddur. Ona görə də qlobal geosiyasi aktorlardan fərqli olaraq Azərbaycanın Orta Asiya respublikaları ilə sıx inteqrasiya qurmaq imkanları mövcuddur. Bu bizim xarici siyasət kursumuzun da əsas prioritetlərindən birini təşkil edir. Hazırda Azərbaycanın Orta Asiya ölkələri arasında inteqrasiya prosesi gün-gündən dərinləşməkdə və genişlənməkdədir. Qazaxıstanın Qarabağın yenidən qurulmasında iştirak etməsini də ayrıca qeyd etməyimiz lazımdır. Qazaxıstanla Azərbaycan arasında ikitərəfli əlaqələrin genişlənməsində, türk dünyasına inteqrasiyasının dərinləşməsində Prezident İlham Əliyevin rolu və gördüyü işlər xüsusi qiymətləndirilməlidir. Azərbaycan türk dünyasının inteqrasiyası prosesində üzərinə düşən əlaqələndiricilik missiyasını uğurla yerinə yetirir.

**Millət vəkili Ceyhun Məmmədov deyib ki, Azərbaycanla Qazaxıstan arasında münasibətlər ən yüksək səviyyədədir. Deputatın sözlərinə görə, ikitərəfli əlaqələrin inkişafında iki ölkə liderinin xidmətləri böyükdür:** "Prezident İlham Əliyevin Qazaxıstan Respublikasının "Altın kıran" - "Qızıl qartal" ali ordeni ilə təltif edilməsi xalqlarımızın dostluğunun və qardaşlığının təsdiqidir. Eyni zamanda Prezident İlham Əliyevin Azərbaycan-Qazaxıstan münasibətlərinin möhkəmlənməsi üçün gördüyü işlərə verilən yüksək qiymətin göstəricisidir. Qazaxıstan Prezidenti Qasım-Jomart Tokayevin Azərbaycana səfəri bir daha onu göstərir ki, tərəflər münasibətlərin inkişafında maraqlıdır və səfər iki ölkə arasında əlaqələri yeni müstəviyə - strateji müttəfiqliyə qaldırır. Səfərin əhəmiyyətini artıran ən önəmli məsələlərdən biri strateji münasibətlərin möhkəmləndirilməsi ilə bağlı sənədin imzalanmasıdır. Bu baxımdan "Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında strateji münasibətlərin möhkəmləndirilməsi və müttəfiqlik qarşılıqlı fəaliyyətinin dərinləşdirilməsi haqqında Bəyannamə"nin imzalanması xüsusi əhəmiyyət daşıyır. Qeyd etmək lazımdır ki, Azərbaycanla Qazaxıstan təkcə strateji tərəfdaş deyil, həm də müttəfiqdirlər. Bəyannamə ikitərəfli əməkdaşlığın çox istiqamətlərini ehtiva edir və gələcək fəaliyyət üçün çox ciddi baza rolunu oynayır".

**Parlament üzvünün sözlərinə görə, səfərin əhəmiyyətini artıran digər məsələ Qarabağda həyata keçirilən quruculuq və abadlıq işlərində Qazaxıstanın iştirakıdır:** "Bu baxımdan Qazaxıstanın Qarabağın yenidən qurulmasında iştirakı iki ölkə xalqlarının dostluğunun bariz təzahürüdür. Füzulidə tikiləcək Uşaqların Yaradıcılığının İnkişafı Mərkəzinin təqdimatının keçirilməsi xalqımıza qardaşcasına münasibətin daha bir təzahürü və elementidir. Artıq Füzuli şəhərinin tikintisinin Baş planı təsdiqlənib, artıq yaşayış fondunun ilk tikililəri başlayır. Məhz həmin vaxtadək, bu mərkəz hazır olanda Füzulinin ilk sakinlərinin oraya köçürülməsi planlaşdırılır. Yekunda qeyd etmək lazımdır ki, Qazaxıstan Prezidenti Qasım-Jomart Tokayevin Azərbaycana səfəri ikitərəfli əlaqələrin inkişafında yeni mərhələnin başlamasına cidd təkan verəcək. Həmçinin, bölgə dövlətlərinin müstəqilliyinin möhkəmlənməsində və təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayacaq".

**İsmayıl Qocayev**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**



# Rusiya Ukraynada müharibəyə nəzarəti itirib

## Daha bütün komandirlər Putinə tabedir

**ABŞ-da fəaliyyət göstərən "Amerika Müharibə Araşdırmaları İnstitutu" son dərc etdiyi hesabatda Rusiya-Ukrayna müharibəsi haqqında yeni bilgilər paylaşıb.**

Hesabatda bildirilib ki, Ukraynadakı rus hərbi qruplaşmalarının komandirləri birbaşa Rusiya Prezidenti Vladimir Putinə tabedir. Məhz buna görə də həmin komandanlıqlar nə Müdafiə naziri Sergey Şoyqu, nə də baş qərargah rəisi Valeri Gerasimovun əmrlərinə uyğun hərəkət edirlər. Hətta o da iddia edilib ki, Rusiyanın Ukraynada apardığı və xüsusi hərbi əməliyyatlar adlandırdığı işğalçılıq müharibəsinin birinci mərhələsinin başa çatmasından sonra Rusiya Prezidenti Vladimir Putin Ukraynadakı komandanlığı Müdafiə naziri Sergey Şoyqu və baş qərargah rəisi Valeri Gerasimovdan alıb.

**Politoloq Samir Hümbətov "Şərq"ə bildirib ki, "Amerika Müharibə Araşdırmaları İnstitutu"nun paylaşdığı hesabatdan belə qənaətə gəlmək olar ki, Rusiya Ukraynada apardığı işğalçılıq müharibəsinə mart ayının sonlarından etibarən artıq nəzarəti itirmək üzrədir.** Ekspertə görə, bir neçə gün öncə Rusiyanın Ukrayna cəbhəsində aktiv döyüş əməliyyatlarının səngiməsi ilə bağlı verdiyi "hər şey plan üzrə gedir" açıqlamasından da məlum olur ki, nəzarət Rusiya Müdafiə naziri Sergey Şoyqunun əlində deyil: "Paylaşılan bu məlumatlardan belə qənaətə gəlmək olar ki, Ukrayna müharibəsindən 6 aydan artıq vaxt keçməsinə baxmayaraq Rusiya tərəfinin ciddi uğur əldə edə bilməməsinin arxasında iki önəmli səbəb dayanır. Rusiyanın Ukraynadakı qoşun qruplarında nəzarət tam şəkildə həyata keçirilə bilmir. Qərbdən Ukraynaya verilən silahsursat və hərbi texnika dəstəyi ciddi rol oynayır. Birinci səbəb artıq məlumdur və bu vəziyyət demək olar ki, müharibədə Rusiya əleyhinə işləyən əsas amillərdən hesab edilə bilər. İkinci səbəbə gəldikdə isə burada fərqli yanaşma mövcuddur. Qərb dövlətləri Ukraynanı dəstəkləmək məsələsində birmənalı olmadıqlarını göstərirlər. Proseslərin gedişinə baxsaq, mənzərə belə görünür. ABŞ və İngiltərə Ukraynaya dəstək verir. İngiltərə baş naziri vəzifəsini müvəqqəti icra edən Boris Conson Ukraynaya gəlir. Kiyevə dəstək olduğunu bəyan edir. Amma verilən dəstək tam şəkildə həyata keçirilmir. Yardımlardan hiss edilir ki, Ukraynaya verilən dəstək müharibənin uzadılmasına hesablanıb. Digər Qərb ölkələri isə demək olar ki, Rusiya və Ukrayna arasında ikili oynamağa çalışırlar. Müharibənin uzanması Rusiyanın parçalanması prosesini sürətləndirsə də, Ukraynanı da yer üzündən silir".

**İsmayıl**

# "İranın Cənubi Azərbaycan qorxusu var"

## Turan Rzayev: "Reallıq odur ki, molla rejimi bizim təxmin etdiyimizdən də çox narahatdır"

**İranın Ermənistanla münasibətləri inkişaf etdirdikcə, paralel olaraq Azərbaycana yönəlik siyasətini daha da aqressivləşdirir. Ermənilərə "qardaş" deyib bağrına basan İran hakimiyyəti Azərbaycanı açıq şəkildə hədələməkdən çəkinmir. Türkiyənin "Yeni şəfəq" qəzetinə müsahibə verən Əbülfəz Zöhrəvəndin fikirləri bunun növbəti təsdiqidir.**

Zöhrəvənd deyib ki, "Azərbaycan deyə bir yer yoxdur. Onlar İran əzirləridir. Onlar bu ərazini tərk edib getməlidirlər. Azərbaycan yenidən İrana birləşdirilməlidir!". O, həddini daha da aşaraq "Azərbaycan İran üçün qorxunc fenomen və potensial təhdiddir", "Naxçıvan və bütövlükdə Azərbaycan İrana ilhaq edilməlidir" kimi sərsəm fikirlər də söyləyib. Xatırladaq ki, Zöhrəvənd İranın nüvə danışıqları heyətinin keçmiş üzvü, Əfqanıstan və İtaliyadakı keçmiş səfir olub. Hazırda bu şəxs daha çox İran xüsusi xidmət orqanlarına, daha dəqiq desək, SEPAH-a çalışan ekspert kimi tanınır.

**Siyasi şərhçi Turan Rzayev "Şərq"ə deyib ki, Zöhrəvənd ona təqdim edilən konkret tezislər üzrə danışan ipli kukladan başqa bir şey deyil. Analitikə görə, onun səsləndirdiyi fikirlər birbaşa İranın molla rejiminin mövqeyi kimi qiymətləndirmək olar:** "İran bununla bir daha Azərbaycana qarşı siyasətinin mahiyyətini bütün çılpaqlığı ilə elan etmiş oldu. Reallıq odur ki, molla rejimi bizim təxmin etdiyimizdən də çox narahatdır. Rəsmi Tehranın mövcud narahatlığını isə iki reallıq fonunda izah etmək olar. Birincisi, tarixi reallıqdır. Zöhrəvənd deyir ki, "Azərbaycan yenidən İrana birləşdirilməlidir!". Əslində onun bu ifadəsinin pərdə arxasında İranın Cənubi Azərbaycan qorxusu yatır. Rəsmi Tehran dərk edir ki, Seyid Cəfər Pişəvəri, Məhəmməd Xiyabani, Səttarxan, Bağırxan hərəkatları İranın gələcəkdə parçalanmasının tarixi bazasıdır. 1991-ci ildə Azərbaycanın müstəqilliyini bərpa etməsi regionda hər kəsdən çox İranı təşvişə salıb. İranın narahatlığına səbəb heç də şimal sərhədlərində yeni bir ölkə yaranması deyildi. Bu ölkənin adının Azərbaycan olması idi. Rəsmi Tehran yaxşı bilir ki, gec-tez cənubda bir Azərbaycan yaranacaq".



*"Rəsmi Tehran yaxşı bilir ki, gec-tez cənubda bir Azərbaycan yaranacaq"*

Ekspert vurğulayıb ki, İranın nüvə silahı ətrafındakı problemlərin böyüməsi və Tehranla beynəlxalq birlik arasında gərginliyin artması fonunda Azərbaycan da 44 günlük müharibə ilə regionda reallıqları əsaslı surətdə dəyişdi: "Tehran başa düşür ki, hazırda Cənubi Azərbaycan böyük güclər tərəfindən fars şovinizmi və eksponsionizmini cilovlaya biləcək alternativ vasitə kimi nəzərdən keçirilir. Azərbaycanın əsas stateji müttəfiqlərindən olan İsrail ilə münasibətlərinin son illərdə inkişaf etməsinə fars rejimi aqressiv şəkildə reaksiya bildirir".

**İsmayıl**


Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 2322



# "Olimpiakos", "Frayburq" və "Nant"

## "Qarabağ"ın Avropa Liqasında rəqibləri bəlli oldu

**Ağdamın "Qarabağ" futbol klubunun Avropa Liqasının qrup mərhələsindəki rəqibləri bəlli olub. Azərbaycan təmsilçisi qrup mərhələsində Yunanıstan, Almaniya və Fransa klubları ilə üz-üzə gələcək.**

G qrupunda mübarizə aparacaq komandamız "Olimpiakos", "Frayburq" və "Nant"la eyni qrupda yer alıb. Bəs, "Köhlən atlar"ın Avroliqadakı çıxışından nə gözlənilir? Komandamız qrup mərhələsini adlaya biləcəkmi?

*"Şərq" idman ictimaiyyəti arasında qısa sorğu keçirib.*

**İdman şərhçisi Pərviz Musayev bildirib ki, "Qarabağ"ın Avropa liqasında qrupdan çıxmaq şansı Çempionlar liqasından daha çoxdur:** "Bəlkə də Çempionlar liqasının qrup mərhələsinə çıxmaması "Qarabağ"ın xeyrinə bir amil olub. İndi isə Avroliqanın qrupundan çıxacağımıza inanıram".

**"Qarabağ"ın Çempionlar liqasının təsnifat mərhələsinin ən yaxşı komandası olduğunu deyən "Qol.az" saytının baş redaktoru Aydın Bağırov isə bildirib ki, Ağdam təmsilçisi "Victoria"dan güclüdür və Çempionlar liqasının qrupunda oynamağa layiq idi:** "Avropa liqası da sanballı yarışdı. "Köhlən atlar"ın özünü göstərməsi üçün yaxşı fürsət yaranıb. Avroliqada "Mançester Yunayted", "Arsenal", "Lazio" kimi böyük komandalar yarışır. "Qarabağ"ın potensialı bu liqada ən azı ikinci yeri tutaraq qrupdan çıxmasına imkan yaradır.

"Qarabağ"ın oyunundan çox razı olduğunu deyən "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid qeyd edib ki, hələ o vaxtı "Qarabağ" Londonun, Madridin, Romanın böyük klubları ilə oynamışdı: "Biz Ağdam təmsilçisinin Çempionlar liqası uğuruna şahid olmuşuq. Bu uğurun yenə də təkrarlanmasını istəyərdim. Lakin Avropa liqası da aşağı səviyyə deyil. Orda da köklü klublar var. Hesab edirəm ki, hər şey davam edir və "Qarabağ" qrupdan çıxaraq üzümüzü ağ edəcək".

**Avropa Liqasının əzəmətinin daha yüksək olduğunu deyən idman jurnalisti Ağa Dadaşzadə qeyd edib ki, rəqiblərimiz çox güclü olacaq:** "Victoria"ya məğlub olduq. Bəlkə də bunun özü də bir qismətdir. "Qarabağ"a uğurlar arzulayıram. Ümid edirəm ki, futbolçularımız səhvlərinin əvəzini çıxıb, bizə Avrokuboklarda həyəcan yaşadacaq".

**Nihat Müzəffər**

# Demet Özdemir duyğulu anlar yaşayıb

**Müğənni Oğuzhan Koçla evliliyə hazırlaşan aktrisa Demet Özdemir xına gecəsində göz yaşlarını saxlaya bilməyib.**



Oğuzhan Koçla nikaha daxil olacaq aktrisa yaxın dostları ilə xına gecəsi keçirib.

"Şərq" türk mediasına istinadən xəbər verir ki, xına gecəsinin ilk kadrlarını sosial media hesabında paylaşan Özdemir duyğulu anlar yaşayıb.

Aktrisanın yaxın dostları ilə bir araya gələrək ağladığı anlar sosial şəbəkədə gündəm olub.



Özdemirin xınasından əvvəl subay gecəsi təşkil edən Koç dostları ilə görüşüb. Gecəyə qatılanlar arasında Qoçun yaxın dostları İbrahim Büyükak və Eser Yenenler də olub.

*Partiyanın ən böyük sürprizi isə şübhəsiz ki, Demet Özdemir olub. Aktrisa üzünə duvağ örtərək dostları ilə əylənib.*

**Turan**



# "Bayraktar" Rusiyaya tədarük olunmayacaq

## Türkiyə dövlətinin qərarı təbii qarşılanmalıdır

**Türkiyənin "Baykar" şirkəti özünün "Bayraktar" hərbi pilotsuz uçuş aparatlarının Rusiyaya tədarükünü mümkün hesab etmir.**

APA-nın Moskva müxbirinin məlumatına görə, bunu "Baykar"ın baş direktoru Haluk Bayraktar BBC-nin rus xidmətində dərc olunan müsahibəsində bildirib.

Bayraktar qeyd edib ki, onun şirkəti tamamilə Ukraynanın tərəfindədir və təklif olunan məbləğdən asılı olmayaraq heç nə Ukrayna ilə əməkdaşlığa kölgə salmayacaq.

**"Baykar" şirkətinin addımını "Şərq"ə şərh edən politoloq Əhəd Məmmədli bildirib ki,"Baykar" şirkəti bu addımı Türkiyə dövlətinin razılığı ilə atmış ola bilər:**

"Bu qərar normaldır. Başqa dövlətlər də belə addımlar atır. İsrail də "Harop"u Ermənistana yox, Azərbaycana satır. Həmçinin "Bayraktar"ın bəzi hissələri Ukrayna zavodlarında istehsal olunur. Bu da önəmli məqamdır. Bu səbəbdən şirkət öz mənafelərini düşünərək bu addımı atır.

Ruslar isə onların "Bayraktar"a ehtiyacları olmadıqlarını deyirdi. Bu barədə dəfələrlə rus mətbuatında yazılıb. Digər bir tərəfdən ola bilsin ki, ruslar PUA-ların alışı zamanı onun sirlərini də tələb ediblər. Türklər isə bundan ehtiyat edib, satışdan imtina etmiş ola bilər. Buna müxtəlif aspektlərdən baxmaq olar. Şirkətin bu qərarının Türkiyə-Rusiya münasibətlərinə ciddi təsiri ola biləcəyini düşünmürəm. Çünki Ukrayna müharibəsi fonunda rəsmi Ankara hər zaman Ukraynanı dəstəklədiyini bildirib. Amma Qərbin Rusiyaya qarşı sanksiyalarına da qatılmayıb. Çünki qardaş ölkə balanslı siyasət sürür və öz maraqlarını üstün tutur. Rusiya tərəfi də bunu təbii və normal qarşılayır".

**Çimnaz Şahlar**

# İmperator sözünü tutdu

## Tatlısəs xəstəxanadan birbaşa səhnəyə çıxıb





**Türkiyənin məşhur sənətçisi İbrahim Tatlısəs iki gün öncə Bodrumda yol qəzası keçirib. Mikroavtobusla pikapın toqquşması nəticəsində baş verən qəzada 5 nəfər yaralanıb. Uzun prosesdən sonra Tatlısəs avtomobildən çıxarılıb və xəstəxanaya çatdırılıb.**

"Şərq" NTV-yə istinadən xəbər verir ki, Acıbadem Bodrum xəstəxanasına aparılan sənətçinin qəza yerindən fotolarının yayılmaması üçün ətrafı ağ çarşafla sarılıb. Tatlısəsin sağlamlıq vəziyyəti ilə bağlı müalicə aldığı özəl xəstəxanadan yazılı açıqlama verilib. Xəstəxananın baş həkimi, Ortopediya və Travmatologiya mütəxəssisi Nadir Şener müğənninin ümumi vəziyyətinin yaxşı olduğunu söyləyib.

"Xəstəxanamıza gətiriləndə ayıq idi, ümumi vəziyyəti yaxşı idi. Lazımi müayinələr tez bir zamanda edildi. Başında, döş qəfəsi və qarın nahiyəsində heç bir zədə yoxdur. Yalnız ayaq tarağı sümüklərində sınıqlar var. Hazırda sınıqlar üçün əməliyyat gözlənilmir. Neyrocərrahiyyə, ümumi cərrahiyyə, daxili xəstəliklər, kardiologiya və ortopediya mütəxəssisləri tərəfindən müayinə olunan pasiyentimizin müalicəsi davam edir"- deyə doktor bildirib.

Sənətçi xəstəxanadan buraxıldıqdan sonra Bodrum, Yalıkavada səhnəyə çıxıb. Ayaqları sarğılı əlil arabasında oturaraq musiqi ifa edən Tatlısəs dinləyicilərinə verdiyi sözün üstündə durduğunu deyib.

*Qeyd edək ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan yol qəzası keçirən sənətçiyə telefonla zəng edərək şəfa diləklərini çatdırıb.*

**Çimnaz**

# Türkiyədə sənədsiz yaşayan azərbaycanlıların problemləri həllini tapacaq

## Səyyar ASAN xidmət avtobusunun fəaliyyətə başlaması təqdir olundu

**Avqustun 30-dan sentyabrın 4-dək Türkiyə Respublikasının Samsun şəhərində Aerokosmik və texnologiya festivalı (TEXNOFEST) günləri çərçivəsində Türkiyədə yaşayan azərbaycanlılara dövlət xidmətlərinin çatdırılması məqsədilə Səyyar ASAN xidmət avtobusu vasitəsilə xidmət göstəriləcək.**




***"Bu xidmət xeyli sayda insanı əlavə xərclərdən və sərhəd üzərindən keçiddən azad edir"***

Qeyd edək ki, ölkə xaricində ilk dəfə gerçəkləşəcək Səyyar ASAN xidmət Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin təşkilatçılığı, Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və "ABB" ASC-nin maliyyə tərəfdaşlığı ilə təşkil olunur.

Xüsusi avadanlıqlarla təchiz olunmuş səyyar avtobus vasitəsilə vətəndaşlara şəxsiyyət vəsiqələrinin verilməsi və dəyişdirilməsi; ümumvətəndaş pasportlarının verilməsi və dəyişdirilməsi, sürücülük vəsiqələrinin dəyişdirilməsi, məhkumluq barədə arayışların verilməsi, vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı xidməti, tərcümə xidmətləri, yazılı tərcümə, onlayn tərcümə, apostil sənədlərinin qəbulu, tərcümənin daxili möhürlə təsdiqi, eyniləşdirmə, redaktə, riraytinq, kopiraytinq kimi xidmətlər göstəriləcək.

Bildirilib ki, avqustun 30-dan sentyabrın 4-dək saat 10:00 - 18:00 aralığında təşkil ediləcək xidmətdən yararlanmaq üçün vətəndaşlarımız mütləq "Texnofest" ərazisinə daxil olmaq hüququ verən qeydiyyatdan keçməlidirlər.

**ASAN xidmətin alqışalayiq addım atdığını deyən "Avrasiya Miqrasiya Təşəbbüsləri Platforması" İctimai Birliyinin sədri Azər Allahverənov "Şərq"ə açıqlamasında bildirib ki, bu cür xidmətlər silsilə xarakter daşıyacaq:** "Türkiyədə yaşayan minlərlə soydaşımızın sənəd problemi var. Onların coxu etibarsız, yaxud itirilmiş sənəd problemindən əziyyət çəkirlər. Bu səbəbdən Azərbaycana da gələ bilmədikləri üçün sənədsiz yaşayırlar. Hətta Türkiyə Əmniyyət Müdirliyindən demişdilər ki, minlərlə Azərbaycan vətəndaşı sənədsiz olduğu üçün kompakt şəkildə yaşayırlar. Onların övladları da bundan zərər görür və təhsildən yayınma halları baş verir. Buna görə ASAN xidmətin bu təşəbbüsü təqdirəlayiqdir. Bu xidmət xeyli sayda insanı əlavə xərclərdən və sərhəd üzərindən keçiddən azad edir. Türkiyə səfirliyimiz isə hər zaman bu insanları sənədlə təmin edə bilmir. Çünki səfirliyin üzərində başqa öhdəliklər də var. Onlar şəxsiyyət vəsiqəsinin və yeni doğulan uşaqlara şəhadətnamənin verilməsi ilə məşğul olurlar. Bir çox fəaliyyətlər var ki, xaricdə yaşayan vətəndaşlarımız üçün lazımlıdır. ASAN xidmətin belə işlər görməsi isə onların maraqlarına cavab verir. Bu fəaliyyət hansısa dövrü əhatə edəcək şəkildə həyata keçirildikdə, minlərlə insanın sənədlərə olan ehtiyacını ödəmiş olacaq".

**Nihat Müzəffər**

**Respublikamızda becərilməsi XIX əsrin əvvəllərinə təsadüf edən kartof mühüm ərzaq növünə çevrilib, onu "ikinci çörək" adlandırıblar.**



# Azərbaycan kartofu Avropa bazarına çıxarılır

## Bu daxili bazarda qiymət artımına səbəb olmayacaq

Azərbaycanın bütün bölgələrində rast gəlinən bu məhsul il ərzində bir neçə dəfə yetişdirilir. Kartof ən çox respublikamızın Tovuz-Gədəbəy, Astara-Lerik və Quba-Qusar rayonlarında əkilir. Son günlərdə isə yerli məhsulumuzun Avropa ölkələrinə ixrac edildiyi bildirilir. Bəs bu ixrac ölkə bazarına necə təsir edəcək?

Ölkəmizin kartof ixrac etməsinin iqtisadiyyata müsbət təsir edəcəyini deyən iqtisadçı-ekspert Eyyub Kərimli "Şərq"ə bildirib ki, məhsullarımızın Avropa bazarına çıxışı qeyri-neft sektorunun inkişafı üçün böyük əhəmiyyət kəsb edir: "Ölkə üzrə kartof istehsalı ötən illə müqayisədə 1 milyon iki yüz min tona qədər qalxıb. Daxili tələbatımız isə 1 milyon ton civarında təxmin olunur. Yerdə qalan iki yüz min tonu isə xarici ölkələrə ixrac edirik. Kartofun ixracı fermerlərimizin əlavə gəlir əldə etməsinə və kənd təsərrüfatı məhsullarımızın başqa bazarlarda tanınmasına müsbət təsir edəcək. Daxili tələbatımızı tam ödədiyimiz üçün kartof ixracı qiymət artımına gətirib çıxarmayacaq. Əvvəl bizim ixracatımızın 92 faizini Rusiya bazarları tuturdu. Hazırda kartofun Avropa bazarlarına çıxarılması, gələcəkdə digər kənd təsərrüfatı məhsullarının da xarici bazara girişinə böyük şans yaradacaq".

**Nihat**

# Narkomaniyaya qarşı mübarizəyə bütün cəmiyyət qoşulmalıdır

## Bununla bağlı ayrı-ayrı rayonlarda könüllü dəstələr yaradıla bilər

**"Hər gün media səhifələrində, internetdə, televiziya ekranlarında görürük ki, narkotacirlər, onu istifadə edənlər saxlanılır, həbs edilir, cəzalandırılır. Amma belə görünür ki, bunlar bəs etmir".**

Bu barədə millət vəkili Razi Nurullayev deyib. Deputat bildirib ki, burada yalnız polisdən, hüquq-mühafizə orqanlarının gücündən yox, bütün cəmiyyətin gücündən istifadə etmək lazımdır:



"Azərbaycanda bu sahədə fəaliyyət göstərən qeyri-hökumət təşkilatları var. Bununla bağlı ayrı-ayrı rayonlarda könüllü dəstələr yaradıla bilər. Könüllü dəstələr həm hüquq-mühafizə orqanları ilə əməkdaşlıq edərlər, həm aldıqları məlumatları lazımi orqanlara ötürərlər. Yəni cəmiyyətin özünün də bu məsələ ilə bağlı birbaşa iştirakına ehtiyac var. Müxtəlif təbəqələrin iştirakı ilə böyük müzakirələr açıla bilər ki, cəmiyyət problemin qarşısını almaq üçün hansı addımları ata bilər, necə səfərbər edilər. Burada dövlət orqanlarının da iştirakının stimulizasiyası, motivasiyası vacibdir. Onların da məsələyə müdaxiləsi önəmlidir ki, cəmiyyətin müxtəlif təbəqələri prosesə cəlb olunsunlar".

**İsmayıl**